# "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmani

---

"Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:
1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:
1.1. qüvvədə olan qanunvericilik aktlarının "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;
1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
1.3. "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
1.4. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə birgə Azərbaycan Respublikasında bütün növ lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buraxılışı, təşkili və keçirilməsi fəaliyyətindən əldə olunan gəlirlərin səmərəli istifadəsinin təmin edilməsi məqsədi ilə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
1.5. Öz səlahiyyətləri daxilində "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.
2. Müəyyən edilsin ki, "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.5-ci, 3.2-ci, 3.3-cü, 4.6-cı, 4.8-ci, 5.4-cü, 5.7-ci, 5.8-ci, 7.2-ci, 7.4-cü, 7.9-cu, 8.1-ci, 8.2-ci, 8.4-cü, 8.5-ci, 8.6-cı, 8.7-ci, 8.8-ci, 8.9-cu, 9.1-ci, 9.2-ci, 9.3-cü, 9.4-cü, 9.8-ci, 10.1.7-ci, 11.0.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir.
3. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi öz səlahiyyətləri daxilində "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar zəruri olan tədbirlər görsün.
4. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 26 may 2004-cü il